ELÇİN ŞUNQAROV

# Müxtəsər səhih əqidə

## Sual • Cavab



Hidayət Yolun

WWW.HIDAYETYOLUN.COM

Tovhid.info

Elçin Sunqarov

# "MÜXTƏSƏR SƏHİH ƏQİDƏ"

## SUAL - CAVAB

WWW.HİDAYETYOLUN.COM

1442 - 2021

## *Sual 1*

# UCA ALLAH BİZİ NƏ ÜÇÜN YARADIB?

**Cavab 1:** Uca Allah bizi ona görə yaradıb ki, yalnız Ona ibadət edək və Ona heç bir şeyi şərik qoşmayaq.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Mən cinləri və insanları ancaq Mənə ibadət etsinlər deyə yaratdım."** ("əz- Zariyat" surəsi, 56)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Allahın qullar üzərində olan haqqı odur ki, Ona ibadət etsinlər və Ona heç bir şeyi şərik qoşmasınlar"***. (Buxari və Müslim rəvayət ediblər)

İndi nəzər yetirək görək Allahın bizi yaratma səbəbi olan ibadətin tərifi nədir? - Allahın sevib razı qaldığı bütün söz, fel və əməllər ibadət adlanır.

**Məsələn:** Namaz qılmaq, oruc tutmaq, zəkat vermək, ümrə və Həcc ziyarətlərini yerinə yetirmək, dua etmək, qurban kəsmək və s.

İbadətin nə olduğunu anladıq, bəs Allahın qadağan etdiyi şirk nə deməkdir?

**Şirk:** İbadətin hər hansı bir növünü Allahdan başqasına həsr etməkdir. Məsələn: Allahdan başqasına dua etmək, qurban kəsmək, Allahdan başqasını Allahı sevən qədər sevmək, Allahdan başqasından Alahdan qorxan qədər qorxmaq və.s.

## *Sual 2*

# UCA ALLAHA NECƏ İBADƏT ETMƏLİYİK?

**Cavab 2:** Biz Uca Allaha ixlasla və Onun Elçisinə (salləllahu aleyhi və səlləm) tabe olaraq ibadət etməliyik.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, haniflər kimi ibadət etmək əmr olunmuşdur."** ("əl-Bəyyinə" surəsi, 5)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim bizim əmrimiz olmayan bir əməli edərsə, o əməl ondan qəbul olunmaz."*** ("Müslim")

Deməli biz Allaha ixlasla ibadət etməliyik. Bəs ixlas nədir? - Qulun əməllərini yalnız Uca Allah üçün etməsi ixlas adlanır.

Bəs Allahın Elçisinə (salləllahu aleyhi və səlləm) tabeçilik necə olur? - Uca Allah Muhəmməd peyğəmbəri (salləllahu aleyhi və səlləm) Allahın ona nazil etdiklərini bizə təbliğ etməsi üçün göndərib. Muhəmməd peyğəmbər (salləllahu aleyhi və səlləm) də Allahın nazil etdiklərini bizə ən gözəl şəkildə təbliğ etmişdir. Bizim üzərimizə isə vacibdir ki, dinə aid olan bütün məsələləri ondan öyrənək və ibadətlərimizi onun etdiyi kimi edək.

**Məsələn:** Muhəmməd peyğəmbər (salləllahu aleyhi və səlləm) namazı necə qılıbsa, biz də o cür qılmalı, orucu necə tutubsa, biz də o cür tutmalı, Həcc ziyarətini necə yerinə yetiribsə, biz də o cür həcc etməliyik və s. Muhəmməd peyğəmbərin (salləllahu aleyhi və səlləm) etdiyi ibadətlərə heç bir əlavə və əskiltmə etməməliyik. Əgər biz özümüzdən Allahın əmr etmədiyi bir ibadəti uydurara ona əməl etməyə başlasaq, Allah bizdən o əməli qəbul etməyəcək.

Beləliklə biz Allaha necə ibadət etməli olduğumuzu da öyrənmiş olduq.

## Sual 3

# İMANIN TƏRİFİ NƏDİR?

**Cavab 3:** İman - söz, etiqad və əməldir. İman artır və azalır.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Bu, hansınızın imanını artırdı?" - deyənlər də var. İman gətirənlərə gəldikdə isə, o surə onların imanını artırır."** ("ət-Tövbə" surəsi, 124)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"İmanın ən üstünü "Lə iləhə illəllah", insanlara əziyyət verən şeyləri yoldan götürmək isə imanın ən aşağı şöbəsidir. Həya da imandan bir şöbədir".*** ("Müslim")

Beləliklə öyrəndik ki, iman etmək üçün insan qəlbi ilə etiqad etməli, söz ilə etiqadını ifadə etməli, əzaları ilə isə həmən söz və etiqadın tələb etdiyi əməlləri yerinə yetirməlidir. Həmçinin öyrəndik ki, iman artır, azalır və şöbələrdən ibarətdir. İmanın ən üstün şöbəsi "Lə iləhə illəllah" demək, ən aşağı şöbəsi isə, insanlara əziyyət verən şeyləri yoldan götürməkdir. Həya da imandan bir şöbədir.

**Bəs "Lə iləhə illəllah" kəliməsinin mənası nədir?** - "Lə iləhə illəllah" tövhid kəliməsidir. Mənası isə: "Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur" deməkdir.

## Sual 4

# İBADƏTDƏ EHSAN NƏDİR?

**Cavab 4:** Ehsan - tək olan Allahı və Onun bizi gördüyünü nəzərimizdə saxlamağımızdır.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Həqiqətən, Allah sizə nəzarət edir."** ("ən-Nisa" surəsi, 1)

Həmçinin Uca Allah buyurur: **"O səni namaza duranda da görür."** ("əş-Şuəra" surəsi, 218)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Sənin Allahı görürmüşcəsinə ibadət etməyindir. Sən onu görməsən də, o səni görür."*** (Müslim rəvayət edib)

Beləliklə biz ibadətdə ehsanın nə olduğunu öyrənmiş olduq. Artıq biz bilirik ki, harada oluruqsa olaq, Uca Allah bizi görür. Mömin Uca Allaha sanki Allahı görürmüşcəsinə ibadət etməli, Onun qarşısında tam ixlas, xuşu və təslimiyyətlə durmalıdır. İbadətdə olduğu müddətdə qəlbini və əzalarını ibadətdən başqa fikir və işlərlə məşğul etməməli, Allaha qarşı həm daxilən, həm də zahirən ədəb-ərkanını qoruyub saxlamalıdır.

## Sual 5

# PEYĞƏMBƏRİ (SALLƏLLAHU ALEYHİ VƏ SƏLLƏM) SEVİB ONA TABE OLMAQ NECƏ OLUR?

**Cavab 5:** Ona itaət edib, onun sünnəsindən yapışmaqla olur.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin"** ("Ali-İmran" surəsi, 31)

**Sünnədən dəlil:** Peyğəmbər (sallƏllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim mənə itaət edərsə, cənnətə girər. Kim mənə asi olarsa, artıq üz döndərmişdir".*** (Buxari rəvayət edib)

Beləliklə biz Allah Elçisini (salləllahu aleyhi və səlləm) sevib ona tabe olmağın necəliyini öyrənmiş olduq. Kim peyğəmbərə tabe olarsa, bu, onun peyğəmbəri sevməsinin əlamətidir.

Lakin peyğəmbəri sevdiyini iddia edib onun əmrlərinə və qadağalarına tabe olmayanlara gəldikdə isə, onlar bu iddialarında səmimi deyillər.

Həmçinin biz öyrənmiş olduq ki, kim Allahın Elçisinə (sallƏlahu aleyhi və səlləm) tabe olarsa, Uca Allah onu sevər.

## *Sual 6*

# PEYĞƏMBƏRLƏRİN (ALEYHİMUSSƏLƏM) ƏN BİRİNCİ DƏVƏT ETDİKLƏRİ ŞEY NƏDİR?

**Cavab 6:** Onlar tövhidə dəvət edib, şirkdən çəkindiriblər.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun" - deyə elçi göndərdik".** ("ən-Nəhl" surəsi, 36)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi səlləm) belə buyurur: ***"Onları ən birinci dəvət etdiyin şey, Allahın təkliyi olsun."*** (Buxari və Müslim rəvayət ediblər)

Beləcə biz peyğəmbərlərin (aleyhimussələm) ilk dəvət etdiyi əməlin insanları tövhidə dəvət etmələri və şirkdən çəkindirmələri olduğunu öyrənmiş olduq.

**Bəs tövhidin tərifi nədir?**

Tövhid - Allahı Rububiyyətində, Uluhiyyətində və Ad və Sifətlərində təkləşdirməkdir.

**Tövhidin üç qismi var:**

1. Rububiyyət tövhidi.
2. Uluhiyyət tövhidi.
3. Ad və sifətlər tövhidi.

# Sual 7

# TÖVHİDİN MÜSƏLMAN ÜÇÜN FAYDASI NƏDİR?

**Cavab 7:** Tövhidin müsəlman üçün faydası hidayət, dünya və axirətdə əmin-amanlıqdır.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"İman gətirdikdən sonra imanlarına zülm qatışdırmayanları əmin-amanlıq gözləyir. Doğru yola yönəlmişlər də məhz onlardır."** ("əl-Ənam" surəsi, 82)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Qulların da Allah üzərində olan haqları, Ona heç nəyi şərik qoşmayana Allahın əzab verməməsidir."*** (Buxari və Müslim rəvayət ediblər)

Biz müsəlmanlar dünya həyatının keçici və aldadıcı, axirət həyatının isə həqiqi və daimi olduğunu bilirik. Ona görə də həqiqi və daimi olan axirət həyatını qazana bilmək üçün çalışırıq.

Buna nail olmağın yolu isə, bu müvəqqəti dünya həyatında Uca Allaha həqiqi qul olmaq, Allaha heç bir şeyi şərik qoşmamaqdır.

Bununla yanaşı biz dünya həyatında da əmin-amanlıq içərisində yaşamaq istəyirik. Buna nail olmaq üçün isə Allaha iman gətirib Ona şərik qoşmamaq lazımdır.

Beləliklə biz tövhidin bir müsəlmanın həyatında necə böyük əhəmiyyətə malik olduğunu öyrənmiş olduq.

## Sual 8

# TÖVHİDİN QİSİMLƏRİ HANSILARDIR?

**Cavab 8:** Rububiyyət, Uluhiyyət, Ad və Sifətlər.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!"** ("Məryəm", 62)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: "Allah enir, sonra bir nidaçı nida edərək belə deyir: ***"Ey insanlar! Sizi Yaradan, Ruziləndirən və sizə yalnız Ona ibadət edib başqa heç bir şeyi Ona şərik qoşmamağı əmr edən Rəbbinizdən razı deyilsinizmi?"*** (Təbərani rəvayət edib, hədis səhihdir)

Rububiyyət tövhidi Allahın fellərinə aiddir.

**Məsələn:** yaratması, ruziləndirməsi, öldürüb-diriltməsi və bütün məxluqatın işlərini idarə etməsi Allahın rububiyyətinə bağlıdır. Biz iman edirik ki, Allahın heç bir şəriki yoxdur.

Uluhiyyət tövhidi isə, qulların felləri ilə bağlıdır. Qullar ibadətə aid olan bütün əməlləri yalnız Aləmlərin Rəbbi olan Uca Allaha yönəltməlidirlər. Məsələn: dua etmək, namaz qılmaq, oruc tutmaq, qurban kəsmək, və s. ibadətlər ancaq Uca Allaha həsr edilməlidir. İbadət olunmağa layiq olan yalnız Allahdır və bunda Onun heç bir şəriki yoxdur. Allahdan başqa ibadət olunan bütün digər məbudlar isə batildir.

Ad və Sifətlər tövhidi isə Uca Allahın Quranda və ya Elçisinin dili ilə sünnədə xəbər verdiyi ən gözəl Ad və Sifətlərinə iman etməkdir. Məsələn: ər-Rahmən - Rəhməti hər şeyi əhatə edən, əl-Ğafur - Bağışlayan, əl-Əalə - Ən Uca olan, əl-Əkbər - Ən Böyük olan deməkdir. Biz Rəbbimizin Ad və Sifətlərinə onları təhrif etmədən, yozmadan, inkar etmədən, keyfiyyət vermədən və məxluqlara bənzətmədən iman gətiririk.

**Beləliklə biz tövhidin qisimlərini də öyrənmiş olduq.**

## Sual 9

# RUBUBİYYƏT TÖVHİDİ NƏDİR?

**Cavab 9:** Rububiyyət tövhidi - yaratmaq və işləri idarə etmək kimi fellərində Allahı təkləşdirməkdir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Şübhəsiz ki, Rəbbiniz göyləri və yeri altı gündə yaradan, sonra da Ərşə ucalan Allahdır. İşləri yoluna qoyan Odur."** ("Yunus" surəsi, 3)

**Sünnədən dəlil:** ***"Həqiqətən sizi Allah yaradıb və ruziləndirir, Ona ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın."*** (İmam Əhməd rəvayət edib, hədis həsəndir)

Hər şeyi Uca Allah yaradıb və idarə edir. Bütün məxluqatın ruzisini Allah verir. Allah hər şeyi Görür və Eşidir. Öldürən də, Yaşadan da Allahdır və bütün işlərin idarəsi Onun əlindədir. İbadət olunmağa da məhz bu cür əzəmətə, gücə və qüdrətə malik olan layiqdir. Allahdan başqası isə yaratma, ruziləndirmə, yaşatma, öldürmə, şəfa vermə, hər şeyi görmə və eşitmə gücünə sahib olmadığı üçün, ibadətə də layiq ola bilməz. İbadətə layiq olan yalnız və yalnız hər şeyi Yaradan və idarə edən Uca Allahıdr.

## Sual 10

# ULUHİYYƏT TÖVHİDİ NƏDİR?

**Cavab 10:** Uluhiyyət tövhidi - Allahı dua, nəzir və kömək istəmək kimi ibadətlərdə təkləşdirməkdir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Rəbbin yalnız Ona ibadət etməyi buyurmuşdur."** ("əl-İsra" surəsi, 23)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Onları ən birinci dəvət etdiyin şey, Uca Allaha ibadət etmək olsun".*** (Buxari və Müslim rəvayət ediblər)

Deməli Uluhiyyət tövhidi ibadətə aid olan hər bir işi yalnız Uca Allaha yönəltməkdir. Çünki Allahdan başqa heç bir məxluq ibadətə layiq deyil. İbadətə layiq olan haqq məbud yalnız Uca Allahdır. Allahı ibadətdə təkləşdirmək və ona heç bir şeyi ortaq qoşmamaq hər bir kəsə vacibdir.

## Sual 11

# "LƏ İLƏHƏ İLLƏLLAH" KƏLİMƏSİNİN MƏNASI NƏDİR?

**Cavab 11:** Allahdan başqa haqq məbud yoxdur.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Bu belədir. Çünki Allah Haqdır. Kafirlərin Ondan başqa ibadət etdikləri isə batil bütlərdir."** ("Loğman" surəsi, 30)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim "Lə iləhə illəllah" deyər və Allahdan başqa ibadət olunanları inkar edərsə, onun malı və qanı haram olar. Hesabı isə Allahadır."*** (Müslim rəvayət edib)

İnsanların ibadət etdiyi hər bir şey məbud adlanır. Məbud - ibadət edilən deməkdir. Bu ibadət olunanlar içərisində Allahdan başqa heç bir məbud haqq deyil. Yəni, Allahdan başqa heç bir məbud ibadət olunmağa layiq deyildir. Çünki onların hər birini Allah yaratmışdır. Yaradılmış olanlar isə ibadət olunmağa layiq deyillər. İbadət olunmağa layiq olan və bu ibadətə haqqı çatan yalnız və yalnız Uca Allahdır. Allahdan başqa hər hansı bir məbuda ibadət etmək isə şirkdir. Bir müsəlmanın üzərinə vacib olan, Allaha iman edib, Allahdan başqa ibadət olunan digər məbudları inkar etməkdir. "Lə iləhə illəllah" kəliməsinin mənası da elə budur.

## Sual 12

# AD VƏ SİFƏTLƏR TÖVHİDİ NƏDİR?

**Cavab 12:** Allahın Özünü və ya Elçisinin (salləllahu aleyhi və səlləm) Onu vəsf etdiyi şəkildə isbat etməkdir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir."** ("əş-Şura" surəsi, 11)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Uca Rəbbimiz hər gecə dünya səmasına enir."*** (Buxari və Müslim rəvayət ediblər) Allahın enməsi Onun Ucalığına layiq bir şəkildə baş verir.

Ad və sifətlər tövhidi, Uca Allahın Quranda və ya Elçisinin dili ilə sünnədə xəbər verdiyi ən gözəl Ad və Sifətlərinə iman etməkdir.

**Məsələn:** ər-Rahmən - Rəhməti hər şeyi əhatə edən, əl-Ğafur – Bağışlayan, əl-Əalə - Ən Uca olan, əl-Əkbər - Ən Böyük olan deməkdir. Biz Rəbbimizin Ad və Sifətlərinə onları təhrif etmədən, yozmadan, inkar etmədən, keyfiyyət vermədən və məxluqlara bənzətmədən iman edirik.

## Sual 13

# ALLAH HARADADIR?

**Cavab 13:** Allah səmanın üzərində, ərşin üstündədir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Mərhəmətli Allah Ərşə ucaldı."** ("Ta-Ha", 5)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Həqiqətən Allah belə bir yazı yazmışdır, "Mənim rəhmətim qəzəbimi ötüb***

***keçmişdir." O yazı Onun qatında, ərşin üzərində yazılıdır."*** (Buxari və Müslim rəvayət ediblər)

Biz bu ayə və hədisdən Allahın ərşin üzərində olduğunu görürük. Buna bənzər ayə və hədislər çoxdur. Uca Allahın elmi isə hər şeyi əhatə edir. Allah hər şeyi Görür və Eşidir. Kainatda baş verən heç bir iş Allahın nəzarətindən kənarda deyil. Əksinə, Uca Allah bütün məxluqatı yaratmış olduğu kimi, onların hər bir işinə də nəzarət edir.

## Sual 14

# "ALLAH BİZİMLƏ BİRLİKDƏDİR" NƏ DEMƏKDİR?

**Cavab 14:** Allah elmi ilə bizimlədir, bizi Görür və Eşidir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Allah buyurdu: "Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!"** ("Ta-Ha" surəsi, 46)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Siz eşidənə və yaxın olana dua edirsiniz. O sizinlə bərabərdir."*** (Buxari və Müslim rəvayət ediblər)

Həqiqətən Uca Allah hər bir şeyi Öz elmi ilə əhatə edəndir. Uca Allah hər şeyi Görür və Eşidir. Harada oluruqsa olaq, Allah bizimlə bərabərdir, yəni bizi Görür və Eşidir. Digər sifətlərində olduğu kimi, Allahın görməsi və eşitməsi də Öz Ucalığına yaraşan şəkildədir.

Biz Uca Allahın sifətlərinə keyfiyyət vermir, Onu heç bir məxluqa bənzətmirik. Eyni zamanda Onun Quran və sünnədə varid olmuş heç bir adını və sifətini inkar və təhrif etmirik. Uca Allah özü haqqında bizə nəyi xəbər veribsə, biz də onu olduğu kimi təsdiq edirik. Uca Allahın bütün sifətləri kamildir.

## Sual 15

# MÖMİNLƏR ALLAHI GÖRƏCƏKLƏRMİ?

**Cavab 15:** Bəli, möminlər cənnətdə Allahı görəcəklər və bu, ən böyük nemətdir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"O gün neçə-neçə üzlər nurlanacaq və öz Rəbbinə baxacaqdır."** ("əl-Qiyəmə" surəsi, 22-23)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Siz Rəbbinizi bir birinizə mane olmadan gözlərinizlə bu ayı gördüyünüz kimi görəcəksiniz."*** (Buxari və Müslim rəvayət edib)

Allahı bu dünyada görməyimiz mümkün deyil. Çünki cismimiz buna tab gətirməz. Axirətdə isə Uca Allahı görmək ancaq Onun mömin qullarına nəsib olacaq. Kafirlər isə Allahı görmək nemətindən məhrum olacaqlar.

## Sual 16

# ƏN BÖYÜK GÜNAH HANSIDIR?

**Cavab 16:** Böyük şirk. Yəni, ibadəti Allahdan başqasına sərf etmək. Qurandan dəlil:

Uca Allah buyurur: **"Oğlum! Allaha şərik qoşma. Həqiqətən, Allaha şərik qoşmaq böyük zülmdür!"** ("Loğman" surəsi, 13)

**Sünnədən dəlil:** Allah Elçisindən (salləllahu aleyhi və səlləm) soruşulur ki, Allah qatında ən böyük günah hansıdır. O (salləllahu aleyi və səlləm) isə belə buyurur: ***"Allah səni yaratdığı halda başqasını ona tay tutmaq."*** (Buxari və Müslim rəvayət ediblər)

**Beləliklə biz şirkin ən böyük zülm və günah olduğunu öyrənmiş olduq. Bəs şirkin tərifi nədir?**

**Şirk:** Allaha məxsus olan işlərdə Allaha başqasını ortaq tutmaqdır. Başqası dedikdə, buraya hər bir məxluq daxildir.

İstər mələk, istər peyğəmbər, istər əməlisaleh bir şəxs və ya istənilən hər hansı bir məxluq olsun, onu Allaha ortaq tutmaq şirkdir və bu ən böyük günahdır.

## Sual 17

# BÖYÜK ŞİRKİN ZƏRƏRİ NƏDİR?

**Cavab 17:** Böyük şirk cəhənnəmdə qalmağa səbəb olur.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur."** ("əl-Maidə" surəsi, 72)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim Allaha şərik qoşaraq ölərsə, cəhənnəmə daxil olar."*** (Buxari və Müslim rəvayət ediblər)

Beləliklə biz Allaha şərik qoşmağın zərərini öyrənmiş olduq. Bu, növbənöv nemətlərlə dolu olan cənnətdən məhrum olmaq və ağrılı-acılı əzablarla dolu olan cəhənnəmə düşməkdir.

**Bundan daha böyük zərər nə ola bilər ki?!**

Ona görə hər bir müsəlmana vacibdir ki, şirkin hər bir növündən şiddətlə çəkinsin. Çünki şirk ən böyük günahdır və sahibinin əməllərini puç edir.

## *Sual 18*

# ŞİRKLƏ YANAŞI EDİLƏN ƏMƏLLƏRİN FAYDASI VARMI?

**Cavab 18:** Şirklə yanaşı edilən əməllər fayda vermir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Əgər Ona şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı."** ("əl-Ənam" surəsi, 88)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim bir əməl edər və o əməlində mənimlə yanaşı başqasını da ortaq qoşarsa, onu və şirkini tərk edərəm."*** (Qüdsi hədisdir, Müslim rəvayət edib)

Deməli, şirkin zərərlərindən biri də, şirklə yanaşı edilən əməllərin puç olmasıdır. Odur ki, insan öz əməllərini mütləq ixlasla etməli və əməlləri ilə ancaq Allahın razılığını ummalıdır. Lakin əgər insan əməlini sırf Allah üçün etməz və əməlində hər hansı bir məxluqu Allaha ortaq qoşarsa, əməlləri puç olar və sahibinə heç bir faydası olmaz.

## *Sual 19*

# MÜSƏLMANLAR ŞİRKƏ YOL VERİRMİ?

**Cavab 19:** Bəli, təssüf ki, çox.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir."** ("Yusuf" surəsi, 106)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Ümmətimdən bəzi qəbilələr müşrik olmayınca qiyamət qopmayacaq."*** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Şeytan insanların Allaha şərik qoşmasını və əməllərinin puç olmasını istəyir. Odur ki, o, müsəlmanlara Allaha şərik qoşmağı gözəl göstərir və müxtəlif yollarla onları şirkə salır.

Bu səbəbdən hər bir müsəlmana öz dinini gözəl bir şəkildə öyrənməsi vacibdir ki, şirkə düşərək əməllərini puç etməsin.

## Sual 20

## QƏBİRDƏ NEMƏT VƏ ƏZAB VARMI?

**Cavab 20:** Bəli, qəbirin nemətinə və əzabına iman gətiririk.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Onları səhər və axşamüstü oda salırlar. O Saat gələcəyi gün isə, Firon nəslini ən şiddətli əzaba salın!"** ("əl-Ğafir" surəsi, 46)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: **"Qəbir əzabından Allaha sığının. Həqiqətən qəbir əzabı haqdır."** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Ayədən açıq-aydın görürük ki, o gün, yəni Qiyamət günü gəlmədən öncə bəzi insanlar əzab görəcəklər. Bu da qəbir əzabıdır.

Həmçinin Allah Elçisi də (salləllahu aleyhi və səlləm) qəbir əzabından Allaha sığınmağımızı və qəbir əzabının haqq olmasını bizlərə xəbər verir.

Bizim üzərimizə düşən isə, Uca Allahın və Onun Elçisinin (salləllahu aleyhi və səlləm) verdiyi xəbərə heç bir şəkk və şübhə gətirmədən iman etməkdir.

## Sual 21

# ALLAHIN DOSTU KİMDİR?

**Cavab 21:** Allahın dostu təqvalı mömindir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və Allahdan qorxmuşlar."** ("Yunus" surəsi, 62)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Həqiqətən mənim dostum Allah və saleh möminlərdir."*** (Buxari və Müslim rəvayət ediblər)

Beləliklə biz Allahın dostlarının iman gətirib Allahdan qorxan və saleh əməl işləyənlər olduğunu öyrənmiş olduq. Allahın dostları üçün isə nə qorxu, nə də kədər vardır. Onlar həm bu dünyada, həm də axirətdə xoşbəxt və əmin-amanlıqda olacaqlar. Uca Allah onlar üçün cənnətdə Özündən başqa heç kimin bilmədiyi mükafatlar hazırlamışdır.

## Sual 22

# ALLAHDAN BAŞQASINA DUA ETMƏYİN ÖVLİYALARA DUA ETMƏK KİMİ - HÖKMÜ NƏDİR?

**Cavab 22:** Onlara dua etmək şirkdir, insanı cəhənnəmə daxil edir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Odur ki, Allahla yanaşı başqa bir məbuda dua etmə, yoxsa əzaba düçar edilənlərdən olarsan."** ("əş-Şuəra" surəsi, 213)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim Allahdan başqasına dua edərək ölərsə, cəhənnəmə daxil olar."*** (Buxari rəvayət edib)

Ayə və hədisdən açıq-aydın görürük ki, Allahdan başqasına dua etmək insanın cəhənnəmə girməsinə və əzab görməsinə səbəbdir. Allah özündən başqasına dua edilməsini sevmir və bunu qadağan edir. Duaları eşidən və onlara cavab verən yalnız və yalnız hər şeyə qadir olan Uca Allahdır. Allahdan başqa bütün məxluqlar isə duaları qəbul etməyə və duada istənilənləri yerinə yetirməyə qadir deyillər. Kimliyindən asılı olmayaraq Allahdan başqasına dua etmək şirk və böyük zülmdür.

## Sual 23

# DUA ALLAH ÜÇÜN EDİLƏN BİR İBADƏTDİRMİ?

**Cavab 23:** Bəli, dua Allah üçün olunan bir ibadətdir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər".** ("əl-Ğafir" surəsi, 60)

Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Dua ibadətdir."*** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Bəzi insanlar duanın ibadət olmadığını iddia edir, Allahdan başqasına dua etmək və Allahdan başqasından yardım diləməyin icazəli olduğunu deyir, qəbirlərə, türbələrə gedərək qəbir sahiblərinə dua edirlər. Bu, batil əməldir. Ayə və hədisdən də açıq-aydın göründüyü kimi, dua ibadətdir. İbadəti isə Allahdan başqasına həsr etmək Allaha ortaq qoşmaq, yəni şirkdir.

Şirk isə ən böyük günahdır. Bu səbəbdən hər bir müsəlmanın üzərinə yalnız və yalnız Allaha dua etmək, Allaha sığınmaq və Allahdan yardım diləməkdir. Həqiqətən Allah duaları eşidəndir.

## *Sual 24*

# ÖLÜLƏR DUALARI EŞİDİRMİ?

**Cavab 24:** Xeyr, ölülər duaları eşitmir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **“Sözsüz ki, sən ölülərə haqqı eşitdirə bilməzsən.”** (“Nəml” surəsi, 80)

Həmçinin Uca Allah buyurur: **“Sən isə qəbirlərdə olanlara eşitdirə bilməzsən.”** (“əl-Fatir” surəsi, 22)

Həmçinin Uca Allah buyurur: **“Əgər siz onları çağırsanız, onlar sizin duanızı eşitməzlər.”** (“əl-Fatir” surəsi, 14)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***“Allahın yer üzərində mələkləri var ki, onlar ümmətimdən mənə salam çatdırırlar.”*** (Nəsəi rəvayət edib, hədis səhihdir)

Ayələrdən açıq-aydın görürük ki, ölülər eşitmir və biz istəsək də, onları eşitdirə bilmərik. Hədisdən də məlum olur ki, Allahın peyğəmbərinə də ümmətin salamlarını mələklər çatdırır.

İnsanların səslərini və dualarını eşitməyən ölülərə dua edib onlardan yardım ummaq, şübhəsiz ki, ağıl sahiblərinin işi deyil. Çünki ölmüş kəslər nəinki duaları yerinə yetirmyə, heç onları eşitməyə belə qadir deyillər.

Məhz bu səbəbdən hər bir müsəlmanın üzərinə vacibdir ki, harada olursa olsun onu eşidən və duasını qəbul edən Allaha üz tutsun. Allahdan başqasına dua etmək, Allaha şərik qoşmaqdır.

**Allaha şərik qoşmaq isə, ən böyük zülmdür!**

## *Sual 25*

# ALLAHDAN BAŞQASINDAN KÖMƏK İSTƏMƏK OLARMI?

**Cavab 25:** Allahdan başqasından kömək istəmək icazəli deyil.

**Qurandan dəlil:** Uca Allah buyurur: **“Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik.”** (“əl-Fatihə” surəsi, 5)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***“İstədiyin zaman Allahdan istə, kömək dilədiyin zaman Allahdan dilə.”*** (Tirmizi rəvayət edib, hədis səhihdir)

Ayə və hədisdən açıq aydın-görürük ki, biz ancaq Allahdan kömək diləməliyik. Çünki sıxıntıya düşdüyümüz zaman bizə Ondan başqa heç kim kömək edə bilməz.

Allahdan başqa kömək istənilənlər nəinki bizə, heç özlərinə də bir fayda verə bilməzlər. Biz yalnız Allaha ibadət edir və yalnız Ondan kömək diləyirik. Həqiqətən Allah hər şeyə qadirdir.

## *Sual 26*

# BƏS HAL-HAZIRDA SAĞ OLAN İNSANLARDAN KÖMƏK İSTƏMƏK OLARMI?

**Cavab 26:** Bəli, qadir olduqları şeylərdə dirilərdən kömək istəmək olar.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **“Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın.”** (“əl-Maidə” surəsi, 2)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Qul qardaşının yardımında olduğu müddətcə, Allah da qulun yardımında olar."*** (Müslim rəvayət edib)

Deməli başqa insanlardan yardım istəmək icazəlidir.

**Lakin bunun üç şərti var:**

Birincisi, həmin insan ölü yox, sağ olmalıdır; ikincisi, o, qeybdə olmalı deyil; üçüncüsü: həmin insan tələb olunan işi yerinə yetirməyə qadir olmalıdır.

Bu şərtlərdən başa düşürük ki, kömək istədiyimiz şəxs ölü olmalı deyil, həyatda olan bir insan olmalıdır. Həmçinin o bizi eşitməli və tələb etdiyimiz işi görməyə qadir olmalıdır. Əgər Allahdan başqasından kömək istəmək bu şərtlərə uyğun olmazsa, bu, məxluqdan yalnız Allahın bacardığını tələb etmək hesab olunur ki, bu da icazəli deyil.

## Sual 27

# ALLAHDAN BAŞQASI ÜÇÜN QURBAN KƏSMƏK İCAZƏLİDİRMİ?

**Cavab 27:** Xeyr, icazəli deyil. Çünki, bu əməl böyük şirkdəndir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!"** ("əl-Kövsər" surəsi, 2)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Allahdan başqasına qurban kəsənə Allah lənət etsin."*** (Müslim rəvayət edib)

Bildiyimiz kimi ibadətin heç bir növünü Allahdan qeyrisinə həsr etmək olmaz. Qurban kəsmək də ən əzəmətli ibadətlərdəndir. Onu Allahdan başqasına həsr etmək, Allahdan başqasına ortaq qoşmaq, yəni şirkdir. Allaha şərik qoşmaq isə ən böyük günahdır. Ona görə hər bir müsəlmanın üzərinə vacibdir ki, digər ibadətlərini sırf Allah üçün etdikləri kimi, qurbanlarını da

xalis olaraq Allah üçün kəssinlər. Allah Özündən başqası üçün edilən əməlləri qəbul etmir.

## Sual 28

# ALLAHA YAXINLAŞMAQ ÜÇÜN QƏBİRƏ TƏVAF ETMƏK İCAZƏLİDİRMİ?

**Cavab 28:** Kəbədən başqa heç bir yeri təvaf etmək icazəli deyil.

**Qurandan dəlil:** Uca Allah  belə buyurur: **"Qədim evi (Kəbəni) təvaf etsinlər."** ("əl-Həcc" surəsi, 29)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kəbənin ətrafında təvaf etmək namaz kimidir. Fərq odur ki, siz təvafda danışırsınız."*** (Tirmizi rəvayət edib, hədis səhihdir)

Ümumən bilmək lazımdır ki, hər hansı bir ibadətin dindən olduğunu iddia etmək üçün mütləq dəlil olmalıdır. Çünki ibadət növlərini və ya onlara məxsus zaman və məkanları özümüzdən uydura bilmərik.

Belə olsa idi, hər kəs öz ağlınca gözəl görünən bir əməli edər və bunun ibadət və savab olduğunu iddia edərdi.

Ağıllar müxtəlif olduğuna görə də ortaya saysız-hesabsız yeni "ibadət" növləri və şəkilləri çıxardı. Şübhə yoxdur ki, bu qəbuledilməzdir.

İslam dinində bütün ibadətlər Allahın və Onun Elçisinin bildirdiyi kimidir və bu ibadətlərə heç kim əlavə və azaltma edə bilməz. Təvaf etmək də bu ibadətlərdən biridir.

Odur ki, yalnız Allahın Elçisinin bildirdiyi məkanı təvaf etmək icazəlidir, bu da Kəbə evidir. Yer üzündə Kəbədən başqa heç bir yeri təvaf etmək icazəli deyil.

## *Sual 29*

# QƏBİR OLAN YERDƏ NAMAZ QILMAQ OLARMI?

**Cavab 29:** Qəbirə tərəf yönələrək namaz qılmaq olmaz.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Hara səfərə çıxsan, namaz qıldıqda üzünü məscidul-harama tərəf çevi."** ("əl-Bəqərə" surəsi, 149)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurmuşdur: ***"Qəbirlərin üzərində oturmayın və qəbirlərə tərəf namaz qılmayın."*** (Müslim rəvayət edib)

Allah Elçisi (salləllahu aleyhi və səlləm) daim müsəlmanları istər sağ ikən, istərsə də ölümlərindən sonra bir-birilərinə hörmət bəsləməyə təşviq edirdi. Məhz bu səbəbdən Allah Elçisi (salləllahu aleyhi və səlləm) qəbirlərin üzərinə çıxmağı və qəbirlərin üzərində oturmağı, eləcə də qəbirlərin yanında və ya onlara tərəf namaz qılmağı qadağan edib. Çünki bu əməldə şirkin əlamətləri var. Qəbirə tərəf namaz qılmağın qadağan edilməsi ilə qəbiri əzəmətləşdirməyin qarşısı alınır. Çünki qəbirə tərəf namaz qılmaq, insanların cahiliyyə dövründəki kimi qəbirlərə ibadət etməsi ilə nəticələnə bilər.

Təəssüflər olsun ki, bu artıq bir çox müsəlman ölkəsində baş verir. Odur ki, müsəlmanlar qəbir olan yerlərdə və qəbirə tərəf yönələrək namaz qılmaqdan şiddətlə çəkinməlidirlər.

## *Sual 30*

# FALÇIDAN BİR ŞEY HAQQINDA SORUŞANIN HÖKMÜ NƏDİR?

**Cavab 30:** Soruşan kəsin namazı 40 gün qəbul olunmur.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Əgər bilmirsinizsə, Zikr əhlindən soruşun."** ("ən Nəhl" surəsi, 43)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim bilicinin yanına gələr və ondan bir şey haqqında soruşarsa, onun qırx gün namazı qəbul olunmaz."*** (Müslim rəvayət edib)

Çox təəssüf ki, günümüzdə bu cür əməllərin sayı artıb. Bəzi insanlar dinlərindən qafil olduqları üçün böyük günahlar işləyir, lakin etdikləri əməllərin günah və haram olduğunu bilmirlər. Günümüzdə falçı, baxıcı, bilici, kahin, münəccim, ekstrasens və s. adlar altında insanlara qeybdən xəbər verdiyini iddia edən fırıldaqçıların sayı çoxalıb.

Əziz müsəlmanlar, bilmək lazımdır ki, bütün bunlar şeytan əməlidir və Allah bu cür əməlləri sevmir. Qeybi Allahdan başqa heç kim bilə bilməz. Təsəvvür edin ki, falçıdan mücərrəd olaraq bir şey haqqında soruşmaq insanın qırx gün namazının qəbul olunmaması ilə nəticələnir. Bu səbəbdən bu cür çirkin əməllərdən şiddətlə çəkinmək və öz yaxınlarını çəkindirmək hər bir müsəlmanın üzərinə vacibdir.

## Sual 31

# BİLİCİNİ VƏ YA KAHİNİ TƏSDİQ EDƏNİN HÖKMÜ NƏDİR?

**Cavab 31:** Onları təsdiq etmək Muhəmmədə (salləllahu aleyhi və səlləm) nazil olana (Quran və sünnəyə) küfr etməkdir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz"** ("ən-Nəml" surəsi, 65)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim kahinin yanına gələr və onun dediklərini təsdiqləyərsə, Muhəmmədə endirilənə küfr etmiş olar."*** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Ayədən açıq-aydın görürük ki, qeybi Allahdan başqa heç kim bilmir. Beləliklə biz, qeybi bildiyini iddia edən falçıların, kahinlərin və digərlərinin yalançı olduğunu və insanları aldatdığını yəqin şəkildə bilmiş oluruq. Çünki bunu bizə Uca Allah Quranda xəbər verir. Həmçinin Allahın Elçisi (salləllahu

aleyhi və səlləm) onların dediklərini təsdiq edənlərin ona nazil edilənə, yəni İslam dininə küfr etdiklərini bildirir. Onu da qeyd edək ki, bürclər, ulduz falı və s. adlar altında qeybdən xəbər vermək də bura daxildir. Məhz bu səbəbdən hər bir müsəlmanın üzərinə bu cür batil və dinə zərər verən əməllərdən çəkinməsi vacibdir.

## Sual 32

# QEYBİ BİLƏN VARMI?

**Cavab 32:** Allahdan başqa heç kəs qeybi bilmir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir."** ("əl-Ənam" surəsi, 59)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Qeybi Allahdan başqa heç kəs bilmir."*** (Təbərani, hədis həsəndir)

Ayə və hədisdən açıq-aydın görürük ki, qeybi Allahdan başqa heç kim bilmir. Odur ki, qeybdən xəbər verdiyini iddia edənlərin yalan danışdığını şübhəsiz şəkildə bilirik. Hər bir müsəlman Allahdan başqa heç kəsin qeybi bilmədiyinə qəti şəkildə etiqad etməlidir.

## Sual 33

# MÜSƏLMANLARIN NƏ İLƏ HÖKM VERMƏLƏRİ VACİBDİR?

**Cavab 33:** Müsəlmanların Quran və sünnə ilə hökm vermələri vacibdir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Onların aralarında Allahın sənə nazil etdiyi Kitabla hökm ver."** ("əl-Maidə" surəsi, 49)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Həqiqətən hakim olan Allahdır və hökm də ona qayıdır".*** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Bütün məxluqatı Allah yaradıb və onları necə idarə etmək lazım olduğunu da ən yaxşı Allah bilir. Ayədən də açıq-aydın görürük ki, Uca Allah insanlar arasında Öz hökmü ilə hökm verməyi əmr edir. Odur ki, insanlar hər bir məsələdə Allahın qoyduğu hökmlərə təslim olmalıdırlar. Allahın hökmündən daha yaxşı hökm ola bilməz. Allah elə bir Hakimdir ki, Onun hökmünə qarşı çıxılmaz və bu sifət yalnız Allaha xas olan bir sifətdir.

## Sual 34

# KİMƏ EŞİDİB İTAƏT ETMƏK VACİBDİR?

**Cavab 34:** Allaha itaətə aid olan məsələlərdə müsəlman rəhbəri eşidib ona itaət etmək vacibdir. Hətta o, zülmə yol versə belə.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin."** ("ən-Nisa" surəsi, 59)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: **"Müsəlman bir kəsin üzərinə Allaha qarşı asilik əmr olunmadıqca, sevdiyi və sevmədiyi işlərdə eşidib itaət etməsi vacibdir."** (Buxari və Müslim rəvayət ediblər)

Başçısız bir toplumun idarə edilməsi, onların dünya və dinlərinin əmin-amanlıqda olması qeyri-mümkündür. Ayədə Uca Allah rəhbərlərə itaət etməyi əmr edir. Bu ayədə rəhbərliyin olmasının vacibliyinə dəlil vardır.

Uca Allah buyurur ki: **"Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin."** Onlara itaət etmək, onların var olmasının bir parçasıdır. Vacib olan bir işin tamamlana bilmədiyi şey də vacib olmuş olur. Bunun sirri isə odur ki, rəhbərlik olmadan insanların işləri

nizama düşmür. Rəhbərlik də itaət olmadan nizama düşmür. Rəhbər hətta zalım olsa belə, Allaha qarşı asilik əmr etmədiyi təqdirdə ona itaət edilir. Lakin Allaha qarşı asilik əmr edilərsə, bu halda heç bir məxluqa itaət yoxdur. Yaxşı işlərdə öz rəhbərlərinə itaət etmək bütün müsəlmanların üzərinə vacibdir. Hədisdən də açıq-aydın görürük ki, hətta əmr olunan işlər nəfsimizə xoş gəlməsə belə, Allaha qarşı asilik ehtiva etmədikləri təqdirdə rəhbərin dediklərini eşidib itaət etmək lazımdır. Yaxşı işlərdə rəhbərlərə tabe olmağın vacibliyindəki hikmətə gəldikdə isə, elm əhli Uca və Qüdrətli Allahın bu sözünü dəlil gətirmişlər: **"Davud Calutu öldürdü. Allah ona hökmranlıq və hikmət verdi, ona istədiyini öyrətdi. Əgər Allah insanların bəzilərini digərləri ilə dəf etməsəydi, yer üzü fəsada uğrayardı. Lakin Allah aləmlərə qarşı lütfkardır."** ("əl-Bəqərə" surəsi, 251)

İbn Kəsir "əl-Bidəyə və ən-Nihəyə" kitabında (2\301) deyir ki: *"Yəni əgər krallar insanların üzərində hakim olmazsa, insanlardan güclü olan zəifin haqqını yeyər".* İbn Teymiyyə "Siyəsətuş-Şəriyyəh" kitabında (səh. 217) bu ayəni və Allah Elçisinin (salləllahu aleyhi və səlləm) səfərə çıxan insanların özlərinə rəhbər seçmələrini əmr etməsini, rəhbərliyin olmasının vacibliyinə dəlil olaraq gətirib. O, deyir ki: *"Bilinməsi vacibdir ki, insanların işlərində rəhbərin olması dində olan ən vacib işlərdəndir. Hətta nə dinin, nə də dünya işlərinin rəhbərsiz gerçəkləşməsi mümkün deyil. Adəm övladının xeyirinə olan işlərin tamamlanması, onlar bir-birinin ehtiyaclarında cəm olmadan mümkün deyil. Onlar toplandığı vaxt isə, bir başçı mütləq lazımdır. Hətta Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur:* ***"Üç nəfər səfərə çıxdığı zaman onlardan biri onlara rəhbərlik etsin."***

İmam Əhməd "əl-Musnəd" əsərində Abdullah ibn Amrdan rəvayət edir ki, Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə dedi: *"Yer üzünün hər hansı bir çölündə olan üç nəfərə, özlərindən birinin onlara rəhbərlik etmədən qalmaları halal deyil"*[1]

Həmçinin deyilir ki: *"Altmış il zalım rəhbərlə olmaq, bir gecə rəhbərsiz olmaqdan daha yaxşıdır."* Təcrübə də məhz bunu göstərir.

---

[1] "Əl Musnəd" (6647). Şeyx əl-Albani "əs-Silsilətud-Daifə" (589) əsərində hədisin zəif oldunu deyib. Lakin hədis səfərə aid edilərsə, özündən öncəki hədisdə də olduğu kimi, bu məsələyə aid olan digər hədislər olduğuna görə, bu hədis səhihləşdirilə bilər. Bəzi elm əhli də məhz belə etmişdir.

Həmçinin buna dair hədislərdən Allah Elçisinin (salləllahu aleyhi və səlləm) bu sözüdür: ***"Boynunda beyət olmadan ölən hər bir kəs, cahiliyyə ölümü üzrə ölmüş olar."*** (Müslim rəvayət edib, 1851). Bu şiddətli hədə yalnız vacib bir əməlin tərk edilməsi üzərinə bina edilir.

İbn Həcər "Fəth" (7\13) əsərində deyir ki: *"Bu ölüm halı, itaət etdiyi bir rəhbəri olmadan azğınlıq üzərə olan cahiliyyə əhlinin ölümü kimidir. Çünki onlar bunun nə olduğunu bilmirdilər".*

Bizim şəriətimiz bu haqda ən gözəl hökmlər və aydın izahlar gətirmişdir. İnsanların çoxu, onları haqqa müxalif olan yollara salacaq hərəkətlərə yol verir. Həqiqətən Allah Elçisi (salləllahu aleyhi və səlləm) özündən sonra bu cür rəhbərlərin və başçıların olacağını ümmətinə xəbər vermiş, bu yöndə hikmətli bir üsluba diqqəti çəkmiş və faydalı bir həll yolu gətirmişdir. Buxari və Müslim ibn Məsudun (radiyallahu anhu) belə dediyini rəvayət edirlər: ***"Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə dedi: "Məndən sonra zalım rəhbərlər və inkar edəcəyiniz işlər olacaq. Dedilər ki: "Ey Allahın elçisi! Bizlərdən buna yetişəcək olanlara nə əmr edirsən? Dedi ki: "Sizin üzərinizə vacib olan haqları yerinə yetirin. Öz haqlarınızı isə, Allahdan istəyin."***

İbn Teymiyyə "Mihəcus-Sunnə" (3\232) kitabında deyir: *"Allah Elçisi (salləllahu aleyhi və səlləm) rəhbərlərin zülm edəcəklərini və münkər işlər görəcəklərini xəbər verir. Bununla yanaşı onların haqlarını verməyi və öz haqlarımızı Allahdan istəməyi bizə əmr edir, haqqı vuruşmaqla almağa icazə vermir. Həmçinin onların haqqını verməməyə rüxsət vermir."*

Həmçinin Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Rəhbəri eşit və itaət et. Hətta kürəyinə vursa və əlindəkini alsa da, eşit və itaət et."*** (Müslim rəvayət edib, 1847)

Həmçinin Müslim (4814) Əbu Hureyranın belə dediyini rəvayət edir: Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim itaətdən çıxar, camaatı parçalayar və sonra ölərsə, cahiliyyə ölümü üzərə ölmüş olar".***

Zalım rəhbərlərə qarşı mübarizə aparanların çoxu, ədalətin bərpa olunmasının yolunu ancaq rəhbərə qarşı çıxmaqda görür. Bunun ən böyük cihad olması haqqında həmfikir olub, bunu yerinə yetirənlərin isə ən şücaətli insanlar olduğunu düşünürlər. İnsanların başçılıq etməyi sevmək fitrəti üzrə yaradılışları da onlarda rəhbərə qarşı nifrət hissi oyadır. Halbuki, tarix boyu baş

verən hadisələr sübut edir ki, zalım hakimlərə qarşı qılıncla mübarizəyə çıxmaq daha böyük fitnə-fəsadla nəticələnmişdir. Dinc insanların qanları axmış, ölkələr viranə qalmışdır. Müsəlman hakimə qarşı çıxmaq, inqilab etmək, mitinq və nümayişlər keçirmək və ya hər hansı bir şəkildə bu işlərə dəstək vermək icazəli deyil.

## Sual 35

# ALLAHDAN BAŞQASINA AND İÇMƏK İCAZƏLİDİRMİ?

**Cavab 35:** Allahdan başqasına and içmək icazəli deyil.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"De: "Xeyr, Rəbbimə and olsun ki, siz mütləq dirildiləcəksiniz."** ("ət-Təğabun", 7)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim Allahdan başqasına and içərsə, artıq şirk qoşmuşdur."*** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Həmçinin başqa bir hədisdə Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim and içəcəksə, qoy yalnız Allaha and içsin, ya da sussun."*** (Buxari rəvayət edib)

Allahdan başqasına, məsələn Peyğəmbərə, Kəbəyə, şərəfə, hər hansı bir şəxsin dirisinə və ya ölüsünə, məscidə, qəbirə, türbəyə və s. and içmək şirkdir və buna görə Allaha tövbə edilməli və bağışlanma dilənilməlidir. Kim Allahdan başqasına and içərsə, Allaha şərik qoşmuş olur və bu əməl kiçik şirk hesab edilir. Amma insan Allahdan başqa and içdiyini də Allahı əzəmətləşdirdiyi kimi qəlbində əzəmətləşdirərsə və ya Allahla yanaşı ona da ibadət etməyin doğru olduğuna etiqad edərsə, bu niyyətinə və məqsədinə görə onun bu əməli artıq böyük şirk olmuş olur.

Məhz bu səbəbdən, and içən zaman Allahdan başqasına and içməkdən şiddətlə çəkinmək və yalnız Uca Allaha and içmək hər bir müsəlmanın üzərinə vacibdir.

*Sual 36*

# GÖZ MUNCUĞU VƏ TƏMİMƏ (GÖZDƏYMƏDƏN QORUNMAQ ÜÇÜN GƏZDİRİLƏN ŞEY) TAXMAQ İCAZƏLİDİRMİ?

**Cavab: 36:** Onları taxmaq icazəli deyil, çünki bu, şirkdəndir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **“Əgər Allah sənə bir zərər vurmaq istəsə, bunun qarşısını Ondan başqa heç kəs ala bilməz.”** (“əl-Ənam” surəsi, 17)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***“Kim təmimə asarsa, artıq şirk qoşmuşdur.”*** (Əhməd rəvayət edib, hədis səhihdir) (*Təmimə:* göz, bəla və xəstəliklərdən qorunmaq üçün gəzdirilən şeylərdir)

Hər bir müsəlman qəti şəkildə etiqad etməlidir ki, Allah ona bir zərər toxundurmaq istəsə, o zərərin qarşısını heç bir məxluq ala bilməz. Həmçinin Allah istəməsə, qula heç kim xeyir toxundura bilməz.

Odur ki, kim gözdəymə, xəstəlik və bəlalardan qorunmaq istəyir və ya hər hansı bir xeyirə nail olmaq istəyirsə Allaha yönəlməli, Allahdan kömək diləməlidir. İslam dini tövhid dini olduğu üçün şirkə aparan bütün yollardan çəkindirmişdir. Gözdəymədən qorunmaq üçün asılan əşyalara gəldikdə isə, bunun dində heç bir əsli-əsası yoxdur.

Əksinə bu cür əməllər Allaha şərik qoşanların əməlidir. Heç bir şeyə qadir olmayan cansız əşyalardan yardım diləmək, heç bir sağlam düşüncə və ağılla qəbul edilməyən əməllərdir. Odur ki, bütün müsəlmanlar bu cür əməllərdən çəkinməlidir.

# Sual 37

# UCA ALLAHA NƏ İLƏ TƏVƏSSÜL EDƏ BİLƏRİK?

**Cavab 37:** Uca Allaha Ad və Sifətləri və saleh əməllərlə təvəssül edə bilərik.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin."** ("əl-Əraf" surəsi, 180)

**Sünnədən dəlil:** Öz saleh əməlləri ilə Allaha təvəssül edən üç nəfər mağara əhlinin qissəsi  nəql edilən hədis. (Buxari və Müslim rəvayət ediblər)

Allaha təvəssül etmək, yalnız Uca Allahın icazə verdiyi şəkildə icazəlidir. Ayədən də göründüyü kimi, Allahın adlarını vasitə tutaraq dua etmək icazəlidir.

Məsələn, dua edərkən deyirik ki, "Ey Rahmən, mənə rəhm et" və ya "Ey Mərhəmətli Rəbbim, mənə rəhm et", "Ey Ğafur, məni bağışla" və ya "Ey Bağışlayan Rəbbim, məni bağışla", "Ey Razzaq, mənə bol ruzi yetir" və ya "Ey Ruziləndirən Rəbbim, mənə bol ruzi ver" və s.

Həmçinin hər hansı bir saleh əməlimizi vəsilə edərək Allaha dua edə bilərik. Məsələn, deyirik ki, "Ey Rəbbimiz, biz sənə iman etdik, bizim günahlarımızı bağışla".

Digər saleh əməllərlə də duada təvəssül etmək icazəlidir.

## Sual 38

# SALEH BİR İNSANI VASİTƏ TUTMAQ İCAZƏLİDİRMİ?

**Cavab 38:** Xeyr. Əksinə, sağ və saleh bir insanın duasını vasitə tutmaq olar.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Onlara: "Gəlin Allahın Elçisi sizin üçün bağışlanma diləsin!" – deyildiyi zaman başlarını yelləyir və sən onların özlərini dartaraq üz döndərdiklərini görürsən."** ("əl-Munafiqun" surəsi, 5)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Tabiinlərin ən xeyirlisi Uveys deyilən bir kişidir...onun dərisində ağ hissə (ağ ləkə) vardır. Onun yanınına gedin, sizin üçün bağışlanma diləsin."*** (Müslim rəvayət edib)

Ayə və hədisdən də görürük ki, sağ olan bir şəxsin duasını istəmək icazəlidir. Bu da elə sağ olan bir şəxsin duasını vasitə götürməkdir. Amma vəfat etmiş şəxslərə gəldikdə isə, bu, hətta peyğəmbər belə olsa icazəli deyil. Dinimizdə ölülərdən dua istəməyə dair heç bir dəlil yoxdur. Əksinə bu dini ən gözəl anlayan və yaşayan səhabələr Allah Elçisi (salləllahu aleyhi və səlləm) həyatda ikən ondan özləri üçün dua etməsini xahiş edirdilər. Allah Elçisi (salləllahu aleyhi və səlləm) vəfat etdikdən sonra isə, bunu bir daha etmədilər. Bu da bu əməlin dinimizdə olmamasına dəlildir. Çünki ölmüş şəxslərdən dua, şəfaət və s. istəmək icazəli olsa idi, ilk olaraq səhabələr bunu insanların ən üstünü olan, Allahın seçdiyi və elçi olaraq göndərdiyi Muhəmməddən (salləllahu aleyhi və səlləm) istəyərdilər. Lakin səhabələr qəti şəkildə belə bir tutmayıblar. Halbuki, Allah Elçisinin (salləllahu aleyhi və səlləm) qəbiri onlara çox yaxın idi. Əksinə, səhabələrin yalnız sağ olan insanlardan dua istədikləri varid olub. Ənəs İbn Məlikdən rəvayət olunur ki, quraqlıq zamanı Ömər ibn əl-Xəttab (radiallahu anhu) Abbas ibn Abdulmuttalibin vasitəsi ilə yağış istəyərək belə deyərdi: ***"Allahım, biz sənə Peyğəmbərimizlə (salləllahu aleyhi və səlləm) təvəssül edirdik və sən də bizə yağış endirirdin. İndi isə biz sənə peyğəmbərin əmisi ilə təvəssül edirik, bizə yağış endir."*** (Buxari rəvayət edib, hədis səhihdir)

Burada bir məqamı diqqətə almaq lazımdır ki, bu, Peyğəmbərin və ya onun əmisinin zatı ilə deyil, onların duası ilə Allaha təvəssül etməkdir. Ömər (radiallahu anhu) Abbasdan (radiallahu anhu) yağışın yağması üçün Allaha dua etməsini istəyirdi. Abbas da (radiallahu anhu) dua edirdi və Uca Allah yağış yağdırırdı. Allah Elçisinin (salləllahu aleyhi və səlləm) sağlığında quraqlıq baş verdikdə isə, səhabələr gəlib Allah Elçisindən (salləllahu aleyhi və səlləm) yağış yağdırması üçün Allaha dua etməsini xahiş edirdilər. Allah Elçisi (salləllahu aleyhi və səlləm) də Allaha dua edir və yağış yağırdı. Allah Elçisi vəfat etdikdən sonra isə, ona yaxınlığına görə və saleh bir insan olduğuna görə əmisi Abbasdan (radiallahu anhu) yağış üçün dua etməsini istəyirdilər. Artıq bizə aydın oldu ki, biz saleh insanların özlərini deyil, əksinə onlardan sağ olanların dualarını vəsilə tuturuq. Bu da dinimizdə icazəli olan təvəssül növlərindəndir.

## Sual 39

# DUA EDƏRKƏN HƏR HANSI BİR MƏXLUQUN VASİTƏÇİLİYİNƏ EHTİYAC VARMI?

**Cavab 39:** Dua edərkən hər hansı bir məxluqun vasitəçiliyinə ehtiyac yoxdur.

**Qurandan dəlil:** Uca Allah buyurur: **“Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə dua edənin duasını dua etdiyi vaxt qəbul edirəm.”** (“əl-Bəqərə” surəsi, 186)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***“Həqiqətən siz eşidən və yaxın olana dua edirsiniz, O, sizinlə bərabərdir.”*** (Buxari və Müslim rəvayət edib) Yəni elmi ilə sizinlə bərabərdir, sizi eşidir və görür.

Ayə və hədisdən açıq-aydın görürük ki, Allah bizlərə yaxındır, bizi eşidir və görür. Allahın bizimlə bərabər olması elmi ilədir.

Necə ki, Uca Allah başqa bir ayədə buyurur: **“Qorxmayın, çünki Mən sizinləyəm, eşidirəm və görürəm!”** (“Ta-ha” surəsi, 46)

Harada oluruqsa olaq, Uca Allah bizi görür, eşidir və hətta qəlbimizin dərinliyində olanları da bilir. Odur ki, Allaha dua edərkən hər hansı bir məxluqu vasitə tutmağa ehtiyac yoxdur. Belə bir şeyə ehtiyac olsa idi, bu pak və kamil dini bizə nöqsansız şəkildə çatdıran Allah Elçisi (salləllahu aleyhi və səlləm) bizə bu haqda məlumat verərdi. Halbuki, Allahın Elçisindən bu barədə tək bir xəbər belə varid olmamışdır. Tam əksinə, Allah Elçisi səhabələrinə yalnız və yalnız Allahdan, özü də bilavasitə istəməyi öyrətmişdir. Heç bir səhabədən dua edərkən hər hansı bir məxluqu vasitə tutduqları varid olmamışdır. Onlar bu dini birbaşa Allahın Elçisindən öyrənmiş və ən gözəl şəkildə yaşamış insanlar idi. Əgər bu əməl dinimizdə olsa idi, səhabələr mütləq bu xeyir işdə hamını ötüb keçərdilər.

Lakin onlar heç vaxt dua edərkən Allahla öz aralarına hər hansı bir məxluqu vasitə qoşmayıblar. Bu gün, dua edərkən mütləq hər hansı bir saleh şəxsi vasitə qoşmaq lazım olduğunu iddia edənlər peyda olub. Onların dediyindən belə çıxır ki, Allahın Elçisi (salləllahu aleyhi və səlləm) dini bizə tam çatdırmayıb. Və ya bunu deməklə iddia edirlər ki, dinimiz əksikdir və bu əlavəni etməklə tamlaşmış olur.

Bu isə, Uca Allahın Quranda bizə bildirdiyi haqq xəbəri yalanlamaqdır. Çünki Uca Allah Quranda buyurur ki: **“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim.”** (“əl-Maidə” surəsi, 3)

Peyğəmbərin zamanında İslam dini artıq tam və kamil idi. İslamda heç bir əksiklik və naqislik yoxdur.

Dində olmayan bir şeyi sonradan dinə əlavə etmək bidətdir, hər bir bidət isə azğınlıqdır. Məhz bu səbəbdən dində sonradan çxarılmış yeniliklərdən şiddətlə çəkinmək hər bir müsəlmanın üzərinə vacibdir.

Çünki bu yenilikləri edənə əməlinin heç bir faydası yoxdur və əksinə, bidət əməl işlədiyinə görə Allah qatında günahkardır. Bir sözlə, dua edərkən hər bir şeyi Eşidən və Görən Uca Allaha dua etmək vacibdir.

## Sual 40

# PEYĞƏMBƏRİ (SALLƏLLAHU ALEYHİ VƏ SƏLLƏM) TƏRİFLƏMƏKDƏ HƏDDİ AŞMAQ OLARMI?

**Cavab 40:** Peyğəmbəri (sallallahu aleyhi və səlləm) tərifləməkdə həddi aşmaq olmaz.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"De: "Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin məbudunuz Tək olan İlahdır."** ("əl-Kəhf" surəsi, 110)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Nəsranilər Məryəm oğlu İsanı tərifdə həddi aşdıqları kimi, siz də məni tərifdə həddi aşmayın. Mən onun quluyam. Deyin ki: Allahın qulu və elçisi."*** (Buxari rəvayət edib)

Ayə və hədisdən də görürük ki, peyğəmbər də bizim kimi insan olub. Sadəcə Uca Allah onu özünə elçi seçərək şərəfləndirib və digər insanlardan üstün edib. Amma bu o demək deyil ki, bununla o, qulluqdan çıxıb. Xeyr, peyğəmbərlər də (saləvatullahi aleyhim) Allahın qullarıdır və heç bir ilahi sifətə sahib deyillər. Nəsranilər (xristianlar) İsaya (aleyhissələm) "Allahın oğlu" deyir, ona ilahi sifətlər verir, ona dua edir və ondan yardım diləyirlər. Allahın Elçisi Muhəmməd (salləllahu aleyhi və səlləm) öz ümmətini onu şişirtməkdən, olduğu məqamdan daha yüksəyə qaldırmaqdan çəkindirib. Lakin təəssüflər olsun ki, ümmətimizdə də Peyğəmbəri (salləllahu aleyhi və səlləm) olduğu məqamdan ucaya qaldıranlar, ona dua edən, ondan şəfa diləyənlər var. Şübhə yoxdur ki, Allah Elçisi (salləllahu aleyhi və səlləm) həyatda ikən bu cür əməllərin işlənməsinə icazə verməyib. Odur ki, onun vəfatından sonra da bu cür əməllər etmək icazəli deyil. Allah Elçisi (salləllahu aleyhi və səlləm) tövhidi qorumaqda çox həris idi.

İbn Abbas (radiyallahu anhumə) deyir ki: *"Bir kişi Allah Elçisinə (salləllahu aleyhi və səlləm) dedi ki: "Allah və sən istəsən". Dedi ki: "Məni Allaha tay tutdun? Tək Allah istəsə" de".*

Başqa bir rəvayətdə isə, *"De ki: Allah istəsə, sonra sən istəsən"* ləfzi keçir. Həmçinin başqa bir hədisdə Allah Elçisi (salləllahu aleyhi və səlləm) dua edərək deyir ki: ***"Allahım, mənim qəbrimi ibadət olunan bütə çevirmə."***

Hədislərdən də görürük ki, Allah Elçisi qövmünün onu digər qövmlərin öz peyğəmbərlərini şişirtdiyi kimi şişirtməsindən qorxurdu. Buna görə Allaha dualar edir və qövmünü bu cür əməllər etməkdən çəkindirirdi. Bizim üzərimizə düşən Allahın Elçisini (salləllahu aleyhi və səlləm) hər kəsdən çox sevmək və onun pak yolunu tutub getməkdir. Lakin bununla yanaşı, onu qulluq sifətindən çıxarmamalı, onu tərifdə həddi aşmamalıyıq.

## Sual 41

# MÖMİNLƏRLƏ DOSTLUQ ETMƏK NƏ DEMƏKDİR?

**Cavab 41:** Tövhid əhli olan möminlərə sevgi bəsləmək və onlara kömək etməkdir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır."** ("ət-Tövbə" surəsi, 71)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Həqiqətən mömin digər mömin üçün bir bina kimidir. Onların biri digərini bərkidir."*** (Buxari və Müslim rəvayət ediblər)

Bu sözləri dedikdə Allah Elçisi əl barmaqlarını bir-birinə keçirir və möminlərin qardaşlığının bu cür sıx və möhkəm olmasını feliylə də izah edir._İslam dini müsəlman toplumunu sağlam təməl və qardaşlıq üzərində bina etmişdir. Uca Allah Öz Kitabında, başqa bir ayədə xəbər verir ki, möminlər bir-birinin din qardaşıdır. O, buyurur: **"Möminlər həqiqətən də qardaşdırlar."** ("əl-Hucurat" surəsi, 10)

Qardaşlıq isə, müsəlmanların bir-birinə qarşı kin və nifrət duymasına maneədir. Əksinə, bu din qardaşlığı möminlər arasında sevgi və dostluğun bərqərar olmasına səbəbdir.

Həmin bu qardaşlıq və dostluq bir əsasa qayıdır - bu da onları bir araya cəm edən imanlarıdır. Sayları çox olsa da, bütün möminlər bir əsas üzərində, Allaha və axirət gününə iman üzərində birləşmişdir. Odur ki, öz mömin bacı və qardaşlarına qarşı sevgi bəsləmək, onlarla dostluq etmək bütün möminlərin üzərinə vacibdir. Bir müsəlman öz mömin bacı və qardaşlarına yardım etməli, onlara pislik etmək istəyənlərə mane olmalı və heç bir mömin bacı-qardaşına nifrət bəsləyərək ondan üz çevirməməlidir.

## Sual 42

## KAFİRLƏRDƏN UZAQ DURMAQ NƏ DEMƏKDİR?

**Cavab 42:** Kafirlərə nifrət etmək və düşmənçilik bəsləməkdir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **“Həqiqətən, biz sizdən və sizin Allahdan başqa tapındığınız şeylərdən uzağıq. Biz sizi inkar edirik. Siz bir olan Allaha iman gətirincəyə qədər bizimlə sizin aranızda daim ədavət və nifrət olacaqdır!”** (“əl-Mumtəhənə” surəsi, 4)

**Sünnədən dəlil:** Allah Elçisi (sallallahu aleyhi və səlləm) belə buyurur: ***“Həqiqətən Əbu Filan ailəsi mənim dostum deyil.”*** (Buxari və Müslim rəvayət ediblər) Çünki onlar kafirlərdəndir.

Ayə və hədisdən də açıq-aydın görürük ki, kafirlərlə düşmənçilik etməyimizin səbəbi, onların iman etməmələridir. İman etmiş möminlərə qarşı sevgi bəslədiyimiz və onlarla dostluq etdiyimiz kimi, iman etməyən kafirlərə qarşı da bunun əksi olan nifrət və düşmənçilik bəsləyirik. Onlar küfrlərində davam etdiyi müddətcə möminlər kafirlərə nifrət edirlər. Çox təəssüf ki, müsəlmanlar arasında elələri var ki, hər hansı bir kafirə sevgi bəsləyir, onu az qala hər kəsdən çox sevir. Buna məşhur kafir idmançıları sevənləri misal çəkmək olar. Bəzi gənclər öz geyimləri, saç düzümləri, yeriyişləri və s. əməlləri ilə özlərini həmin o kafir idmançılara bənzədirlər. Halbuki, Allahın Elçisi (salləllahu aleyhi və səlləm) öz ümmətini kafirlərə bənzəməkdən şiddətlə çəkindirmişdir. Bir hədisində Allah Elçisi (salləllahu aleyhi və səlləm) buyurur ki: ***“Kim özünü bir qövmə bənzədərsə, o da onlardandır.”*** Bu, çox şiddətli bir qınaqdır. Odur ki, özünü kafirlərə bənzətməmək, onlara sevgi bəsləməmək,

tam əksinə, iman etmədiklərinə görə iman edincəyə qədər kafirlərə nifrət bəsləmək hər bir müsəlmana vacibdir.

## Sual 43

# QURAN MƏXLUQDURMU?

**Cavab 43:** Xeyr, əksinə, Allahın Öz Elçisinə nazil etdiyi kəlamıdır.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **“Və Allah Musa ilə sözlə (vasitəsiz) danışdı.”** (“ən-Nisa” surəsi, 164)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***“Uca və Qüdrətli Allah Qiyamət günü deyəcək ki: “Ey Adəm!” Adəm deyəcək: “Buyur ey Rəbbimiz! Əmrinə müntəzirəm!” Sonra səslə nida edəcək.”*** (Buxari rəvayət edib)

Ayədən görürük ki, Uca Allah Musa ilə (aleyhissələm) danışmışdır. Uca Allah Qurani-Kərimdə Musa ilə danışması barədə xəbər verərək belə buyurur: **“Oda yaxınlaşdıqda bir səda gəldi: “Ey Musa! Həqiqətən, Mən sənin Rəbbinəm. Başmaqlarını çıxart. Çünki sən müqəddəs Tuva vadisindəsən! Mən səni seçmişəm. Sənə vəhy olunanı dinlə! Qoy ona inanmayan və nəfsinin istəklərinə uyan bir kəs səni ondan yayındırmasın, yoxsa məhv olarsan! Sağ əlindəki nədir, ey Musa?” Musa dedi: "Bu mənim əsamdır. Ona söykənir və onunla qoyunlarıma yarpaq silkələyirəm. Bu, mənim üçün başqa işlərə də yarıyır”. Allah buyurdu: “At onu yerə, ey Musa!”** (“Ta-Ha” surəsi, 11-18)

Həmçinin hədisdən də açıq-aydın görürük ki, Uca Allah Qiyamət günü Adəmlə danışacaq. Uca Allahın Kəlam sifəti vardır. Allah istədiyi zaman istədiyi sözü danışır. Quran da Allahın kəlamıdır, Allahın kəlamı isə məxluq deyildir.

Quranın yazıldığı vərəqlərə, mürəkkəbə və Quran oxuyarkən çıxardığımız səsə gəldikdə isə, bəli, bütün bunlar məxluqdur.

Biz Quran məxluq deyildir dedikdə, Allahın nazil etdiyi kəlamı nəzərdə tuturuq. Allahın kəlamı əsla məxluq deyildir!

## Sual 44

# ALLAH NƏ ÜÇÜN QURANI NAZİL EDİB?

**Cavab 44:** Onu başa düşüb, ona əməl edilməsi və ayələrinin xatırlanması üçün.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Bu mübarək Kitabı, insanların onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik."** ("əs-Sad" surəsi, 29)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Quranı oxuyun və onunla əməl edin. Onu ehmal etməyin və onda həddi aşmayın."*** (Əhməd rəvayət edib, hədis səhihdir)

Quranı oxuyub ona əməl etmək hər bir müsəlmana vacibdir. Hədisdə müsəlmanlar Qurana qarşı etinasız olmaqdan çəkindirilib. Onu ehmal etməyin, yəni - Quranı tilavət etməyi tərk etməyin. Həddi aşmayın, yəni - Quranın ləfzlərində və mənalarında həddi aşaraq onun ayələlərinə batil təvillər, mənalar verməyin. İnsanları Uca Allah yaradıb və onların necə yaşamalı olduqlarını, hansı əməlləri etməli olduqlarını, onlar üçün nəyin faydalı və nəyin zərərli olduğunu hər kəsdən yaxşı məhz O bilir.

Uca Allah bunların hamısı Quranda xəbər vermişdir. Odur ki, hər Allahın bizə göndərdiyi Kitaba qarşı diqqətli olmaq, Quranı oxumaq, onu düzgün başa düşmək və ona doğru şəkildə əməl etmək hər bir müsəlmanın üzərinə vacibdir.

## Sual 45

# QURANA ƏMƏL EDİB, HƏDİSİ TƏRK ETMƏK OLARMI?

**Cavab 45:** Qurana əməl edib, hədisi tərk etmək olmaz.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin."** ("əl-Həşr" surəsi, 7)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Bilin ki, mənə Quran və onunla yanaşı onun mislində olan verildi."*** (Əhməd və Əbu Davud rəvayət ediblər, hədis səhihdir)

Uca Allah Muhəmmədi (salləllahu aleyhi və səlləm) elçi olaraq seçmişdir.

O, Allahın dinindən bir şeyi xəbər verdiyi zaman bunu öz nəfsi istəklərinə əsasən vermir. Əksinə, bütün bunlar Allah tərəfindən bir vəhydir.

Necə ki, Uca Allah Qurani Kərimdə bu haqda xəbər verir**: "O, öz istəyi ilə danışmır. Bu, ona təlqin edilən bir vəhydir."** ("ən-Nəcm" surəsi, 3-4)

Səhih hədislər İslam dinində Qurandan sonra ikinci mənbədir. Hədislər olmadan dini düzgün başa düşmək qeyri-mümkündür. Qurani-Kərimdə bir çox əmrlər və qadağalar vardır ki, onların təfsilatlı izahı hədislərdə varid olub.

Məhz bu səbəbdən, Quran və hədislər bərabər götürülməlidir. Birinə əməl edib digərini tərk etmək, dini təhrif etməkdir.

Çünki bu din Quran və sünnə üzərində bina edilmişdir.

## Sual 46

# HƏR HANSI BİR SÖZÜ ALLAH VƏ RƏSULUNUN SÖZÜNÜN ÖNÜNƏ QOYMAQ OLARMI?

**Cavab 46:** Heç bir sözü Allah və Elçisinin sözünün önünə qoymaq olmaz.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Heç bir şeydə Allahı və Onun Elçisini qabaqlamayın."** ("əl-Hucurat" surəsi, 1)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Asilikdə itaət yoxdur: itaət ancaq yaxşı işlərdədir."*** (Buxari və Müslim rəvayət ediblər)

Şəriətin əsası olan üsullardan biri də odur ki, Allaha qarşı asilikdə məxluqa itaət yoxdur. İtaət olunması əmr olunan hər kəs bu üsula daxildir. Məsələn, valideynlərə itaət etmək vacibdir, lakin yaxşı işlərdə._Əgər valideynlər Allaha qarşı asilik olan bir işi əmr edərsə, bu zaman onlara itaət etmək icazəli deyil,_əksinə haramdır. Allaha qarşı asilik olan bir işi əmr etdikləri zaman onlara itaət etməmək valideynlərin üzə ağ olmaq deyil. Müsəlmanlar Allah və Onun Elçisinin sözünü hər şeydən üstün tutmalıdırlar.

## Sual 47

# İXTİLAF ETDİYİMİZ ZAMAN NECƏ DAVRANMALIYIQ?

**Cavab 47:** Kitaba (Qurana) və səhih sünnəyə qayıtmalıyıq.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Onun Elçisinə müraciət edin."** ("ən-Nisa" surəsi, 59)

**Sünnədən dəlil:** Allah elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Mən sizə iki şey tərk etdim. Əgər o ikisindən tutunsanız, heç vaxt azmazsınız: Allahın kitabı və mənim sünnətim."*** (Hakim rəvayət edib, hədis səhihdir)

Bir məsələ haqqında ixtilaf etdiyimiz zaman, onu Allahın Kitabına və Elçisinin sünnəsinə qaytarmağımız vacibdir. Çünki istənilən bir məsələnin doğru həll yolu Quran və Sünnədə mövcuddur. Müsəlmanlar da Quran və sünnəyə əməl etməklə mükəlləfdirlər. İxtilafları Quran və sünnəyə müvafiq şəkildə həll etməkdən üz döndərmək isə azğınlıqdır. Quran və sünnə, müsəlmanların dinlərini üzərinə bina etdikləri iki əsasdır. Onları əvəzləyəcək başqa heç bir şey mövcud deyil. Allah Elçisi (salləllahu aleyhi və səlləm) bu hədisdə xəbər verir ki, əgər qul bu dünyada bu iki əsasdan tutunarsa, bu onun üçün axirətdə qurtuluşdur. Həmçinin bu hədisdə sünnəyə əməl etməyin mühüm olmasına dəlil vardır.

## *Sual 48*

# QURAN VƏ SÜNNƏNİ NECƏ BAŞA DÜŞMƏLİYİK?

**Cavab 48:** Səhabələrin, tabiinlərin və onlara tabe olanların başa düşdüyü kimi.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Dində hamını ötüb keçən ilk mühacirlərə və ənsarlara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəlincə, Allah onlardan razıdır, onlar da Ondan razıdırlar."** ("ət-Tövbə" surəsi, 100)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"İnsanların ən xeyirliləri mənim əsrimdə yaşayanlardır, sonra onlardan sonra gələnlər, sonra onlardan sonra gələnlər."*** (Buxari və Müslim rəvayət ediblər)

Səhabələr (Allah onlardan razı olsun) bu ümmətin ən xeyirliləri idi. Onlar islam dinini birbaşa Allahın Elçisindən ən gözəl şəkildə öyrənmiş və hayatlarına bütövlükdə tətbiq etmişdilər. Quranı və Allah Elçisinin (salləllahu aleyhi və səlləm) sünnəsini ən gözəl öyrənən və başa düşən məhz səhabələr idi.

Səhabələrdən sonra gələn tabiinlər elmi səhabələrdən, tabiinlərdən sonra gələnlər isə tabiinlərdən öyrənmişdilər. Allah Elçisi (salləllahu aleyhi və səlləm) bir hədisində bu üç nəslin xeyir üzərində olduqları haqqında xəbər vermişdir.

Biz də Quran və sünnəni doğru bir şəkildə başa düşmək istəyiriksə, səhabələrin və onlara ən gözəl şəkildə tabe olanların Quran və sünnəni necə başa düşdüklərinə, necə əməl etdiklərinə baxmalıyıq. Bu halda biz Allahın izniylə Quran və sünnəni ən doğru şəkildə başa düşə bilərik. Uca Allah bizi Quran və sünnəni fəhm edib ona əməl edənlərdən etsin. Əmin.

## Sual 49

## HAQQ YOL BİRDİR, YOXSA BİR NEÇƏ?

**Cavab 49:** Haqq yol bir neçə yox, birdir.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, o yollar sizi Allahın yolundan uzaqlaşdırar."** ("əl-Ənam" surəsi, 159)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Peyğəmbərlər, anaları fərqli olan qardaşlardır. Onların anaları fərqli, dinləri isə birdir."*** (Buxari və Müslim rəvayət ediblər) Yəni, bütün elçilər insanları tövhidə dəvət ediblər.

Bütün məxluqatı tək olan Allah yaradıb və hər bir şeyi tək özü idarə edir. Qullarına əmrlər verən və qadağalar edən yalnız Uca Allahdır. Uca Allahın qullarını yönəltdiyi haqq yol da təkdir. Bunun əksi qəbuledilməzdir. Allahın yer üzərinə göndərdiyi bütün peyğəmbərlər tövhidə dəvət ediblər. Şübhə yoxdur ki, bu haqq yol Quran və sünnədir. Uca Allah Quran və sünnəni insanların tabe olub haqq yol üzrə getmələri üçün öz peyğəmbəri Muhəmməd (salləllahu aleyhi və səlləm) vasitəsi ilə göndərmişdir. Odur ki, həmin bu tək haqq yola tabe olmaq hər bir müsəlmanın üzərinə vacibdir.

## Sual 50

# ALİMƏ NECƏ SUAL VERİLMƏLİDİR?

**Cavab 50:** Hökm və dəlil haqqında soruşulmalıdır.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **“Onlara: “Allahın nazil etdiyinə itaət edin!"– deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!"– deyərlər.”** (“Loğman” surəsi, 21)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***“Münafiq və ya tərəddüddə olana gəldikdə isə, o belə deyər: “Bilmirəm. İnsanların bir şeylər dediyini eşitdim və mən də onu dedim.”*** (Buxari və Müslim rəvayət ediblər)

Bəli, haqqı bilib ona tabe olmaq istəyənlər hökmləri səhih olan dəlillərlə birgə öyrənir və əməl edirlər. Nəfsi istəklərinə tabe olanlar isə, səhih dəlilə baxmadan, özlərinə sərf edən hökmlərə tabe olurlar. Onlara səhih dəlilləri təqdim etdikdə və ona tabe olmağın vacibliyini bildirdikdə isə, “biz filan alimin, filan şeyxin sözünü deyirik, onun yolunu gedirik” deyərək üz döndərirlər. Şübhə yoxdur ki, bu, haqq yolun ardınca gedənlərin üslubu deyil, öz hava və nəfsi istəklərinə uyanların yoludur. Dinimizə aid olan məsələləri öyrənərkən dəlillərini də soruşmaq bizim üzərimizə vacibdir. Çünki dinimiz dəlillər üzərinə bina edilmişdir. Odur ki, hər hansı bir alimdən və ya elm adamından şəri bir hökmü soruşduqda, dəlilini də soruşmaq bizə vacib edilmişdir.

## Sual 51

# DİNDƏ BİDƏT (YENİLİK) NƏDİR?

**Cavab 51:** Şəri dəlili olmayan hər bir ibadət.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **“Yoxsa onların Allahın dində izin vermədiyi şeyləri onlar üçün şəriət qanunu edə bilən şərikləri vardır?”** (“əş-Şura” surəsi, 21)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim bizim bu işimizdə ondan olmayan bir yenilik çıxararsa o qəbul olunmaz."*** (Buxari və Müslim rəvayət ediblər)

İslam dini tam və kamil bir dindir, onda heç bir əksiklik yoxdur. Allahın Elçisi Muhəmməd (salləllahu aleyhi və səlləm) bu dini kamil bir şəkildə təbliğ edib insanlara çatdırmışdır. Uca Allah belə buyurur: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim."** ("əl-Maidə" surəsi, 3)

Uca Allah Öz Kitabında bizə dinin tamamlandığını xəbər verir. Artıq tamamlanmış olan bir dinə əlavələr etmək isə bidətdir. Başqa bir hədisdə Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Sizi dində sonradan çıxarılan yeniliklərdən çəkindirirəm. Həqiqətən dində çıxarılan hər bir yenilik bidətdir. Hər bidət də azğınlıqdır."*** Bəli, əziz müsəlmanlar, dində çıxarılan bidətlər dindən deyildir. Hər bir bidət azğınlıqdır, hər bir azğınlıq isə oddadır. Bidət əmələ görə savab yoxdur, əksinə günah vardır. Odur ki, bidətin hər bir növündən çəkinmək vacibdir.

### Sual 52

## İBADƏT TÖVQİFİDİRMİ (QURAN VƏ SÜNNƏDƏ BİLDİRİLMİŞ)?

**Cavab 52:** Bəli, ibadət yalnız vəhylə sabit olmuş şəkildə edilir.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim."** ("əl-Maidə" surəsi, 3)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Cənnətə yaxınlaşdıran və cəhənnəmdən uzaqlaşdıran hər bir şey artıq sizə bəyan edilib."*** (Təbərani rəyavət edib, hədis səhihdir)

Əziz müsəlmanlar, ayə və hədisdən də açıq-aydın görürük ki, dinimiz artıq tamamlanıb. Allahın sevib razı qaldığı işlər, həmçinin sevməyib qadağan etdiyi hər bir əməl artıq bəyan edilib. Bu da o deməkdir ki, bir əməlin ibadət olduğunu iddia ediriksə, mütləq Quran və sünnədən dəlil gətirməliyik. Çünki Cənnətə yaxınlaşdıran bütün yaxşı əməllər artıq bəyan edilib. İbadət olduğu iddia edilən hər hansı bir əmələ Quran və sünnədə dəlil yoxdursa, deməli o əməl ibadət hesab oluna bilməz və bidətdir. Haramlar da eynilə: hər hansı bir əməlin haram olduğunu iddia ediriksə, buna Quran və sünnədən dəlil gətirməliyik.

Çünki haramı və halalı müəyyən edən Uca Allahdır. Haramlığına dəlil olmayan bir əmələ "haram" deməyə heç bir məxluqun haqqı yoxdur. Beləliklə, "ibadətlər tövqifidir" dedikdə nəzərdə tutulur ki, əgər bir işin ibadət olması iddia edilirsə, o əməlin ibadət olduğuna mütləq Quran və sünnədən dəlil gətirilməlidir. Əks halda o əməl ibadət hesab oluna bilməz.

## Sual 53

# DİNDƏ YAXŞI BİDƏT VARMI?

**Cavab 53:** Xeyr, əksinə, gözəl sünnə vardır.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Bizi müttəqilərə imam et!"** ("əl-Furqan" surəsi, 74)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Kim islamda gözəl bir sünnət qoyarsa, ona o əməlin əcri, eləcə də özündən sonra ona əməl edənlərin əcri vardır."*** (Müslim rəvayət edib ) Gözəl sünnə dedikdə, yəni sədəqə kimi dində əsası olan bir əməl nəzərdə tutulur.

Bir sözlə, bidətin yaxşısı, gözəli olmur. Əksinə, hər bir bidət azğınlıqdır. Necə ki, Allah Elçisi (salləllahu aleyhi və səlləm) öz hədisində bunu açıq-aydın bildirərək deyib: ***"Sizi dində sonradan çıxarılan yeniliklərdən çəkindirirəm. Həqiqətən dində çıxarılan hər bir yenilik bidətdir. Hər bidət də azğınlıqdır."***

Gördüyümüz kimi Allahın Elçisi (salləllahu aleyhi və səlləm) heç bir istisna etmədi və bütün bidətlərin azğınlıq olduğunu bildirdi. Həmçinin bəzi əməllər lüğəvi cəhətdən yenilik adlandırılsa da, şəri cəhətdən yenilik deyildir. Məsələn, dində əsli olduğu halda tərk edilmiş, unudulmuş bir əməli yenidən diriltmək, ortaya çıxarmaq kimi. Belə ki, zaman keçdikcə dindən olan bəzi əməllər unudulur və tərk edilir. Kim o əməli yenidən yada salar və ortaya çıxararsa, bu, dində qadağan edilən yenilik çıxarmaq hesab edilmir, çünki bu əməl dindəndir, sadəcə olaraq insanlar onu tərk ediblər. Qadağan olunan yenilik isə, dində heç bir əsli-əsası olmayan, insanlar tərəfindən sonradan çıxarılan əməllərdir. Bu əməllərə "gözəl bidət" deyilməsi onları gözəl etmir. Tam əksinə, Allah Elçisinin (salləllahu aleyhi və səlləm) bildirdiyi kimi, bidətlərin hər biri azğınlıqdır.

## Sual 54

# SƏHABƏLƏR BARƏSİNDƏ BİZİM ÜZƏRİMİZƏ VACİB OLAN NƏDİR?

**Cavab 54:** Onları sevmək, onlara tabe olmaq və ixtilaflara qarışmamaq.

**Qurandan dəlil:** Uca Allah buyurur: **"Səhabələrdən sonra gələnlər deyirlər: "Ey Rəbbimiz! Bizi və bizdən əvvəlki iman gətirmiş qardaşlarımızı bağışla."** ("əl-Həşr" surəsi, 10)

**Sünnədən dəlil:** Allah Elçisi (sallallahu aleyhi və səlləm) belə buyurur: ***"Mənim səhabələrim zikr edildiyi zaman onlar haqqında danışmayın."*** ("Səhihul-Cəmi")

Həmçinin deyir: ***"Mənim səhabələrimi söyməyin."*** (Buxari və Müslim rəvayət ediblər)

Bizim üzərimizə vacib olan Allah Elçisinin (salləllahu aleyhi və səlləm) səhabələrini sevməkdir. Onları ən gözəl sözlərlə tərifləmək və onlar üçün dua etmək onların haqlarındandır. Allah Elçisi (salləllahu aleyhi və səlləm) ***"Mənim səhabələrim zikr edildiyi zaman onlar haqqında danışmayın"*** deyir.

Yəni onlar haqqında pis bir şey danışmayın. Onların öz aralarında baş verən anlaşılmazlıqlara da qarışmamalı və onları yalnız xeyirlə yad etməliyik. Onlar hər hansı bir məsələdə xəta etmiş olsalar belə, bunu öz nəfsi istəklərinə görə etməyiblər, əksinə ictihad edərək bu nəticəyə gəliblər. Odur ki, etdikləri xətalara görə onlara günah yoxdur, əksinə savab vardır. Çünki Allah artıq onlardan razı qalmışdır. Necə ki, Uca Allah buyurur: **"Allah onlardan razıdır, onlar da Ondan razıdırlar."** ("əl-Bəyyinə" surəsi, 8) Bəli, Allah onlardan razıdır. Allahın razı olduğu kimsələrdən biz necə narazı ola bilərik ki?!

## Sual 55

# MÜSƏLMANLAR NƏ ZAMAN QALİB GƏLƏCƏKLƏR?

**Cavab 55:** Allahın Kitabına və Onun Elçisinin (salləllahu aleyhi və səlləm) sünnəsinə əməl etdikdə.

**Qurandan dəlil:** Uca Allah belə buyurur: **"Ey iman gətirənlər! Əgər siz Allaha (Onun dininə) kömək göstərsəniz, O da sizə kömək göstərər və ayaqlarınızı möhkəmlədər."** ("Muhəmməd" surəsi, 7)

**Sünnədən dəlil:** Allah Elçisi (salləllahu aleyhi və səlləm) belə buyurur: ***"Əgər alış-verişi riba ilə etsəniz, cihadı tərk edib əkinçilik və maldarlıqla məşğul olsanız, Allah sizin üzərinizə elə bir zəlillik salar ki, dininizə geri dönmədikcə onu sizin üzərinizdən qaldırmaz."*** (Əbu Davud rəvayət edib, hədis səhihdir)

Ribanın hər növü haramdır. Bu hədisdəki riba, bir şəxsin başqasına nisyə mal satıb daha sonra onu nağd olaraq daha ucuza almasıdır ki, bu da ribanın bir növüdür.

Həmçinin heyvandarlıq və əkinçilik dedikdə də, cihadı tərk edərək ancaq dünya malı əldə etmək üçün çalışmaq nəzərdə tutulur. Bunun nəticəsi olaraq insanlar zəlilliyə və bəlaya düçar olurlar.

Bəli, nə vaxt ki, müsəlmanlar Allahın kitabından və Elçisinin sünnəsindən yapışıb, Allah yolunda cihad edərək Allahın dinini üstün tutublar, Allah onları ucaldıb və izzətləndirib.

Həmçinin nə vaxt ki, Allahın dinindən uzaq düşüb, izzəti və üstünlüyü başqa şeylərdə axtarıblar, ucalmaq və izzətlənmək əvəzinə zəlil hala düşərək başqa kafir qövmlərin əsarətinə və zülmünə məruz qalıblar.

Çünki müsəlmanların izzətlənməsi və ucalması, onların Allahın dininə əməl etmələri ilə bilavasitə əlaqəlidir.

**UCA ALLAH MÜSƏLMANLARI ÖZ DİNLƏRİNƏ**

**ƏMƏL EDƏRƏK İZZƏTLƏNMƏYƏ MÜVƏFFƏQ ETSİN!**

**ƏMİN!**

HİDAYƏT YOLUN

**WWW.HİDAYETYOLUN.COM**

**1442 - 2021**